# Çinli qonaqlar Milli Məclisdə olublar



Milli Məclisin bir qrup deputatı iyunun 5-də Çin Xalq Siyasi Məşvərət Şurasının Quanqdonq Əyalət Komitəsinin sədri Lin Keqingin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri və Çinlə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Azər Əmiraslanov qonaqları salamlayaraq, Azərbaycanla Çinin qarşılıqlı əməkdaşlığa böyük maraq göstərdiyini deyib. O, ölkələrimiz arasında münasibətlərin strateji xarakterinə toxunub, əlaqələrin bugünkü yüksək səviyyəyə çatmasında hər iki ölkənin dövlət başçılarının mühüm rolunu vurğulayıb.

Komitə sədri ölkələrimizin iqtisadi və siyasi müstəqillik kimi məsələlərə yüksək dəyər verməsindən söz açıb, bir çox qlobal əhəmiyyətli layihələrdə, eləcə də Orta dəhlizin reallaşması çərçivəsində birgə səylərini yüksək dəyərləndirib. O, Azərbaycan və Çin arasında uğurlu əməkdaşlığın, o cümlədən parlament müstəvisində əlaqələrimizin inkişaf etdirilməsi barədə fikirlərini səsləndirib.

Çin Xalq Siyasi Məşvərət Şurasının Quanqdonq Əyalət Komitəsinin sədri Lin Keqing göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkür edib, səfəri ilə bağlı xoş təəssüratlarını bölüşüb. Ölkələrimiz arasındakı yüksək siyasi dialoqun iqtisadi-ticari münasibətlərə və digər sahələrdə əməkdaşlığın inkişafına müsbət təsir etdiyini bildirən qonaq qarşılıqlı-faydalı əməkdaşlığımızın perspektivlərindən danışıb.

Sonra Milli Məclisin Çinlə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Ziyad Səmədzadə Çin iqtisadiyyatının özünəməxsus cəhətlərinə diqqət çəkib, onun qlobal iqtisadiyyatda artan rolundan danışıb. Söhbət zamanı iki ölkə arasında münasibətlərin dərinləşməsində parlamentlərin də vacib rolu qeyd edilib, ikitərəfli münasibətlərin bir sıra istiqamətlərdə inkişafı və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Görüşdə deputatlar Naqif Həmzəyev, Səbinə Salmanova, Fatma Yıldırım, Göydəniz Qəhrəmanov, Çin nümayəndə heyətinin üzvləri və digər şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 6 iyun (№ 117).- S.6.